

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 177 (23.819)

25 sentyabr 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri davam edir. Sentyabrın 23-də ümumi müzakirələr zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub. Çıxışda Azərbaycan Hökumətinin ilk günlərdən əhalinin COVID-19 pandemiyası əleyhinə həyata keçirdiyi tədbirlərdən bəhs edilib.

Qeyd olunub ki, Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional əlaqələndirmə layihələrinin icrasında fəal iştirak edir və bununla da Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Vurğulanıb ki, 44 günlük müharibə ərzində Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı.

***

Prezident İlham Əliyev həmin gün İraq Respublikasının neft naziri İhsan Əbdül Cabbarı qəbul edib.

***

Rusiyanın nüfuzlu “Nasionalnaya oborona” jurnalının saytında Prezident İlham Əliyevin jurnala verdiyi müsahibə işıqlandırılıb.



## Sahibkarlarla görüşdə onlara yeni layihələr təqdim edilib

*Sentyabrın 24-də Naxçıvan Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Şərur Sənaye Məhəlləsinin sahibkarlar üçün üstünlükləri, istehsal və emal sahələrinin təşkili üçün yaradılacaq imkanlar barədə özəl bölmə nümayəndələrinin məlumatlandırılması və muxtar respublikada reallaşdırılması səmərəli hesab edilən layihələrlə bağlı müzakirələrin aparılması məqsədilə sahibkarlarla görüş keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həyata keçirdiyi iqtisadi siyasətin məqsədi davamlı inkişafı təmin etməkdən ibarətdir. Bu istiqamətdə əldə edilən nailiyyətlərin qazanılmasında yerli və xarici investisiyaların, müasir texnologiyaların cəlb olunması və qabaqcıl idarəetmə təcrübəsinin tətbiqi ilə rəqabətədavamlı məhsul istehsal edən 400-dən çox müəssisənin böyük rolu var. Cari ilin ötən dövrü ərzində də bu proses davam etdirilib, dövlət maliyyə dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələri üzrə 81 istehsal və xidmət sahəsi istifadəyə verilib. Hazırda 53 sahənin yaradılması davam etdirilir. Qeyd olunub ki, 2021-ci ilin ötən dövrü ərzində sahibkarlığın inkişafı iqtisadi siyasətin üstün istiqamətlərindən olub, sahibkarların maliyyə təminatı yaxşılaşdırılıb, güzəştli kreditlərin həcmi artıb. Ümumilikdə isə 2000-ci ildən 2021-ci ilin ötən dövrü ərzində 1605 layihənin maliyyələşdirilməsinə 171 milyon 137 min manatdan çox vəsait yönəldilib.



Nazir yerli xammaldan istifadə imkanlarının artırılmasının əhəmiyyətindən danışaraq dövlət maliyyə dəstəyi ilə son illər ərzində muxtar respublikanın kəndlərində müxtəlif profilli çoxsaylı kiçikhəcmli istehsal sahələrinin yaradıldığını vurğulayıb.

Sahibkarların diqqətinə çatdırılıb ki, layihələr hazırlanarkən yerli xammal ehtiyatı və əmək resurslarını nəzərə almalıdırlar. Reallaşdırılması nəzərdə tutulan layihələr içərisində orqanik gübrə, minişərab, plastik taralar, velosiped, efir yağı, bitumlu membran, tomat pastası, şərab, corab, dəftər, qələm, sabun, yun iplik, tibbi pambıq, bitki yağı, ipliklərin təbii boyaqlarla boyanması, mismar, gülab, yumurta tarası, qurudulmuş və dondurulmuş meyvə-tərəvəz, yabanı meyvə və tərəvəz məhsullarının konservləşdirilməsi, arıçılıq məhsullarının emalı sahələrinin, damazlıq təsərrüfatlarının yaradılması, ət kəsim və heyvandarlıq məhsulları tədarükü məntəqələrinin, avtoservis, turizm və əyləncə sahələrinin yaradılması, o cümlədən idman sahəsində pullu xidmət növlərinin yaradılması daha məqsədəmüvafiq hesab edilir. Nazir qəsəbə və kəndlərimizdə yetişən meyvə sortları, zəngin bitki örtüyü və digər təbii ehtiyatların olması bölgələrdə kiçikhəcmli emalı müəssisələrinin yaradılmasının iqtisadi cəhətdən səmərəli olduğunu vurğulayıb.

Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsin idarə heyətinin sədri Novruz Novruzlu çıxış edərək bildirib ki, fondun vəsaitləri muxtar respublikanın sosial-iqtisadi inkişaf istiqamətləri çərçivəsində qəbul edilmiş Dövlət proqramlarında iqtisadiyyatın bu və ya digər sahələrinin inkişafı ilə bağlı nəzərdə tutulmuş konkret layihələrin maliyyələşdirilməsinə yönəldilib. Bu gün sahibkarlara təqdim edilən layihələrdən bəhrələnmək istəyənlər fonda müraciət edə və istədiyi layihənin reallaşdırılması üçün kreditlərdən yararlana bilərlər.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Xudakərim Məmmədov muxtar respublikada sənaye məhəllələrinin yaradılmasının əhəmiyyətindən danışıb. Qeyd edilib ki, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə olunmaqla sənaye sahələrinin inkişaf etdirilməsi, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, məşğulluğun və məşğulluqda sənayenin xüsusi çəkisinin artırılması baxımından sənaye məhəllələrinin yaradılması böyük əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin müdiri Elnur Mahmudov yaradılması iqtisadi cəhətdən səmərəli hesab edilən xammalı yerli və qismən idxal hesabına ödənilən hazırlanmış 16 layihənin hər biri barədə slaydlar vasitəsilə sahibkarlara ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara yeni layihələrin əks olunduğu məlumat vərəqələri paylanılıb.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## Naxçıvanşünaslıq Mərkəzində “Şərq qapısı” qəzetinin 100 illik yubileyi qeyd olunub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər Planına əsasən sentyabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində mətbu orqanın yubiley tədbiri keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Nihad Tarverdiyev açaraq “Şərq qapısı” qəzetinin muxtar respublikanın tarixi inkişaf yolunun işıqlandırılmasındakı böyük rolundan, ictimai-siyasi həyatın tarixiləşdirilməsindəki əhəmiyyətindən bəhs edib. Qeyd edilib ki, Naxçıvanda maarifin, elmin və ictimai fikrin inkişafına mühüm töhfələr verən, peşəkar jurnalist kadrların hazırlanmasında baza rolunu oynayan 1990-1993-cü illərdə isə “Şərq qapısı” qəzeti görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın xilası naminə həyata keçirdiyi tədbirləri və qəbul etdiyi tarixi qərarları geniş xalq kütləsinə çatdırmış, informasiya blokadasının aradan qaldırılmasında və milli dövlət quruculuğu yolunda fəal mübarizələrdə misilsiz xidmətlər göstərmişdir.

Diqqətə çatdırılıb ki, “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə Sərəncamın imzalanması və bu Sərəncamla Tədbirlər Planının təsdiq olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısının bariz nümunəsidir .

Tədbirdə “Şərq qapısı” qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncamı bu mətbu orqanın muxtar respublikamızın ictimai-siyasi, sosial həyatındakı, bütövlükdə, Azərbaycan ictimai-siyasi fikir tarixindəki yerini bir daha aydın təsdiq edir.

Vurğulanıb ki, bu gün “Şərq qapısı” qəzeti redaksiyasında istər jurnalist peşəkarlığı, istərsə poliqrafik keyfiyyət baxımından müasir tələblərə cavab verəcək, dünya qəzetçilik arenasına çıxa bilən qəzetin nəşri üçün müasir iş şəraiti yaradılıb. Muxtar respublikada jurnalistika sahəsində kadr potensialının formalaşdırılmasına göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün “Şərq qapısı”nda təcrübəli jurnalist həmkarlarımızla yanaşı, gənc əməkdaşlar da çalışır. 2012-ci ildən etibarən *www.serqqapisi.az* saytı vasitəsilə qəzet dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlayıb, qəzetin elektron arxiv bazası yaradılıb. Sayt 2019-cu ildə yenilənib. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, eləcə də Ali Məclis Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradılıb. Bütün bunlar muxtar respublikada uğurlu mətbu siyasətin təcəssümüdür. Naxçıvan həqiqətlərinin dünyaya düzgün çatdırılması, informasiya blokadasının yarılması, informasiya təminatı kimi mühüm məsələlərin düşünülmüş şəkildə təşkilinin bəhrələridir. “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” müvafiq Sərəncamın imzalanması və bu Sərəncamla Tədbirlər Planının təsdiq olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir.



Diqqətə çatdırılıb ki, “Şərq qapısı” qəzetinin 100 illik yubiley tədbirinin bu mərkəzdə keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki Naxçıvanşünaslıq Mərkəzi Naxçıvanın tarixini, mədəniyyətini, dövlətçilik ənənələrini, iqtisadiyyatını, sosial və ictimai dəyərlərini öyrənən elmi mərkəz, “Şərq qapısı” qəzeti isə bu missiyanı şərəflə davam etdirən dövlətçilik məktəbidir. “Şərq qapısı” qəzetinin özü də bir Naxçıvanşünaslıqdır, Naxçıvanı öyrənməyin bir yoludur, Naxçıvanşünaslıq elmi istiqamətinin istər Naxçıvanşünaslıq Mərkəzi, istərsə də kütləvi informasiya vasitələri tərəfindən inkişaf etdirilməsi və təbliği muxtar respublikada həyata keçirilən dövlətçilik siyasətinin bəhrəsidir. Baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib, bundan sonra da səylə çalışacaqlarını diqqətə çatdırıb.

Tədbirdə “Şərq qapısı” qəzetinin İqtisadiyyat və təhlil şöbəsinin müdiri Səbuhi Həsənov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kitabxanaçısı İsmayıl Quliyev çıxış edərək Naxçıvanşünaslığın təbliğində “Şərq qapısı” qəzetinin rolundan söhbət açıblar.

Tədbirin sonunda Naxçıvanşünaslıq Mərkəzinə “Şərq qapısı”nın 100 illik yubileyi münasibətilə hazırlanan simvolik hədiyyə təqdim edilib, mərkəzdə yaradılan “Ümummilli lider Heydər Əliyev”, “Şərq qapısı” – 100”, “İsmayıl Hacıyev – 70”, “Qars müqaviləsi – 100”, “Yeni nəşrlər”, “Oxunması zəruri olan kitablar” adlı başlıqlardan ibarət sərgiyə baxış olub.

**Gülcamal TAHİROVA**

*27 sentyabr Turizm İşçiləri Günüdür*

# Naxçıvanda turizmin inkişafı üçün davamlı tədbirlər görülür







***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 1 sentyabr tarixli Sərəncamına əsasən hər il sentyabrın 27-si ölkəmizdə “Turizm İşçiləri Günü” peşə bayramı kimi qeyd olunur.***

Təbii-coğrafi baxımdan əlverişli mövqedə yerləşən ölkəmizdə turizmin inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadimi ölkəmizə hər iki rəhbərliyi dövründə bu sahənin inkişafını diqqətdə saxlamışdır. Ötən əsrin 70-ci illərində Azərbaycanda turizm təşkilatları və ekskursiya bazalarının geniş şəbəkəsi yaradılmış, müasir mehmanxanalar, ictimai əyləncə obyektləri inşa olunmuşdur. Müstəqillik illərində də ulu öndər bu sahənin inkişafını diqqətdə saxlamış, dövlət turizm siyasətinin tənzimlənməsi sahəsində mühüm hüquqi baza yaradılmış, “Turizm haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur.

***“Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir. Bizim çox gözəl təbiətimiz var. Bəlkə, nadir ölkələrdən biriyik ki, burada istənilən təbii şərait, istənilən iqlim var”,*** – deyən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ümummilli liderimizin siyasi xətti uğurla davam etdirilir. Son illərdə ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanıdılması istiqamətində, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ölkə başçısının imzaladığı sərəncamlar, qəbul edilən Dövlət proqramlarının uğurlu icrası Azərbaycanı dünyada turizm ölkəsinə çevirmişdir. Azərbaycanın bütün bölgələrində yeni turizm obyektləri, yay-qış turizm kompleksləri, mehmanxanalar inşa olunmuş, mədəni- tarixi qoruqlar yaradılmışdır. 2011-ci ilin “Turizm ili” elan edilməsi isə Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin daha bir ifadəsi olmuşdur.

Ölkəmizin hər bir guşəsi kimi, onun qədim insan və mədəniyyət məskəni, təbii sərvətlər muzeyi olan, “Şərqin qapısı” adlandırılan Naxçıvan Muxtar Respublikası bu gün turistlərin ən çox sevdiyi məkanlardandır. Əlverişli coğrafi mövqeyi, müxtəlif iqlim qurşaqlarının mövcudluğu, zəngin mədəni irsi, təbii müalicə mərkəzləri, mineral suları, özünəməxsus mətbəxi, yüksək qonaqpərvərlik ənənələri və müasir inkişafı muxtar respublikada turizmin inkişafını şərtləndirən başlıca amillərdir. 200-dən çox mineral bulağı, 400-ə qədər böyük və kiçik çayı olan Naxçıvan Muxtar Respublikasında Azərbaycanın nadir fauna və florası məskunlaşmışdır. Muxtar respublikanın zəngin təbiəti və onun qorunması sahəsində həyata keçirilən tədbirlər turizmin bir çox növünün inkişafına şərait yaratmışdır. Ərazidə olan flora və faunanın nadir növləri Naxçıvan Muxtar Respublikasının “Qırmızı Kitabı”na daxil edilmiş və xüsusi mühafizəyə alınmışdır. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Arazboyu, Ordubad və Arpaçay Dövlət Təbiət yasaqlıqları hesabına xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 28 faizini təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizmin inkişafına təkan vermiş, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artmışdır. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərinə belə, rahat yollar salınmış, su xətləri çəkilmiş, müasir infrastruktur obyektləri tikilmiş, fasiləsiz təbii qaz, elektrik enerjisi, rabitə xidməti və sürətli internet istifadəyə verilmişdir. Qədim diyarın Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili, Xanəgah, Dırnıs, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələrində kənd yaşıl turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Həmin kəndlərdə asudə vaxtını səmərəli keçirmək istəyən turistlərə həm də bütün zəruri xidmətlər təklif olunur. Həmçinin ailə təsərrüfatları tərəfindən hazırlanan ekoloji cəhətdən təmiz qida məhsulları və münasib qiymətlər turist məmnunluğunu səciyyələndirən amillərdəndir. Bu baxımdan muxtar respublikanın kənd yaşayış məntəqələrinə gələn turistlər həm də onlarla çeşiddə təmiz ekoloji məhsullarla tanış olmaq imkanı əldə edirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 29 noyabr tarixli Sərəncamına əsasən Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması və cari ilin fevral ayında Ağbulaq Xizək Mərkəzinin istifadəyə verilməsi muxtar respublikada ənənəvi turizm növlərinin inkişaf etdirilməsi ilə yanaşı, yeni turizm istiqamətlərinin formalaşması üçün də geniş imkanlar yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 7 oktyabr tarixli Sərəncamına əsasən yaradılmış Sahil Parkı qısa müddətdə şəhər sakinlərinin və qonaqların ən sevimli istirahət məkanlarından birinə çevrilmişdir.

Muxtar respublikada idman turizminin inkişafı da diqqətdə saxlanılır. “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”na əsasən yaradılmış və cari ilin aprel ayından istifadəyə verilmiş Uzunoba Təlim-Məşq İdman Kompleksi idman turizminin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Naxçıvan Muxtar respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müasir dünyada turizm sektoru iqtisadi cəhətdən ən gəlirli və perspektivli sahələrdən biridir. Zəngin mədəni-tarixi irsə və əlverişli şəraitə malik olan Naxçıvan Muxtar Respublikasında turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Hazırda muxtar respublikada iqtisadi-sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür”.***

Naxçıvan Muxtar Respublikasının tarix-mədəniyyət abidələri ilə zənginliyi turistləri bu diyara cəlb edən əsas amillərdəndir. Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada 1200-dən çox tarixi abidə pasportlaşdırılaraq qeydiyyata alınmış, 70-ə yaxın tarix və mədəniyyət abidəsi bərpa olunmuşdur. Son illər ərzində Möminə xatın türbəsi bərpa edilmiş, Əshabi-Kəhf Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılmış, Nuh Peyğəmbərin məzarüstü türbəsi, muxtar respublika ərazisindəki buzxanalar, Naxçıvan şəhərindəki İmamzadə Kompleksi, Came məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Naxçıvanqala, Xan sarayı, Yusif Küseyir oğlu türbəsi, Naxçıvan şəhər buzxanası, Şərur rayonunun Yengicə kəndindəki Şərq hamamı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Əlincəqala, Gülüstan türbəsi, Qazançı körpüsü, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksi, Şahtaxtı kəndindəki Şərq hamamı, Babək rayonundakı Nehrəm imamzadəsi və digər tarixi abidələr bərpa olunmuşdur. Həmçinin cari ilin 27 avqustunda Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının istifadəyə verilməsi muxtar respublikada geniş vüsət almış abadlıq və quruculuq tədbirlərinin məntiqi davamıdır. Hazırda Ordubad şəhərində yerləşən Cümə məscidinin bərpası davam etdirilir, həmçinin Cəhri qəsəbəsindəki XV əsrə aid tarixi “Heydərxanlı” məscidi öz orijinal layihəsi əsasında yenidən inşa olunur.

Qədim diyarda müalicə turizminin inkişafına da xüsusi diqqət yetirilir. Dünyanın bənzərsiz təbii şəfa mənbəyi olan Duzdağ Fizioterapiya Mərkəzində tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr üçün müasir şərait yaradılmışdır. Ötən il Duzdağ Fizioterapiya Mərkəzinin müasir standartlara cavab verən inzibati binasının istifadəyə verilməsi isə bu sahəyə olan dövlət qayğısının əyani ifadəsidir. Darıdağ Arsenli Su Müalicəxanası da müalicə turizmi sahəsində böyük imkanlara malikdir. Hazırda tikintisi davam edən Darıdağ arsenli su müalicə və istirahət kompleksi, həmçinin ərazidə “Darıdağ” termal hotelin tikintisi bu şəfalı suyun müalicəvi xüsusiyyətlərindən səmərəli şəkildə istifadəyə şərait yaradacaqdır. Naxçıvan Muxtar Respublikasında dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması dini dəyərlərimizin dünyaya tanıdılmasında vasitə rolunu oynayır. Qədim inancları, möcüzəvi sirləri və əfsanələri özündə yaşadan Əshabi-Kəhf Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, həmçinin pirlər, imamzadələr, qədim məscidlər dünyanın dörd bir yanından gələn zəvvarların ziyarətgahına çevrilmişdir. Bütün bunlar onu göstərir ki, Naxçıvanda dini turizmin inkişafı üçün də real imkanlar mövcuddur.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə bağlı müşavirənin keçirilməsi, “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın qəbul olunması turizmin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin yaradılması isə bu sahədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. 2019-cu ilin 23 sentyabrından etibarən Turizm Departamenti tarixi binada – Naxçıvanskilərə məxsus malikanədə fəaliyyətini davam etdirir. Departamentin fəaliyyəti üçün müasir standartlara cavab verən maddi-texniki baza yaradılmış, departamentin nəzdində fəaliyyət göstərən Milli Dəyərlər Muzeyinin ekspozisiyası yeni maddi mədəniyyət nümunələri ilə zənginləşdirilmişdir.

Zəngin və özünəməxsus mətbəx turistləri cəlb edən əsas amillərdəndir. Bu baxımdan Naxçıvan mətbəxi hər zövqə uyğun dadlı təamları ilə seçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 9 aprel tarixli Sərəncamına əsasən yaradılmış “Naxçıvan mətbəxi” Kulinariya Mərkəzi qədim mətbəx nümunələrimizin, eləcə də milli mətbəximizə aid adət-ənənə və folklor nümunələrinin toplanması, qorunması, sistemli şəkildə öyrənilməsi, inkişaf etdirilməsi və təbliği istiqamətində səmərəli fəaliyyətini davam etdirir. Mərkəzin nəzdində olan “Milli yeməklər” İctimai İaşə Məhdud Məsuliyyətli Cəmiyyətində milli mətbəx nümunələrinin hazırlanma qaydalarına dair televiziya verilişləri və videoçarxlar hazırlanaraq internet resursları vasitəsilə təbliğ olunur. Son illərdə qədim diyarımızın turizm potensialından səmərəli istifadə olunması, mövcud tələblərə cavab verən turizm infrastrukturunun formalaşdırılması sahəsində mühüm uğurlar əldə olunmuş, yeni hotellər və istirahət mərkəzləri istifadəyə verilmiş, tarixi yaddaşı əks etdirən abidələr bərpa edilmiş, muxtar respublika ərazisində təhlükəsiz mühit formalaşdırılmışdır. Hazırda fəaliyyətdə olan 5 ulduz kateqoriyasına malik “Təbriz” və “Duzdağ” hotelləri, “Saat Meydanı” turistik istirahət mərkəzi, Ağbulaq İstirahət Mərkəzi və digər turizm obyektlərində yüksəkkeyfiyyətli xidmətlər təklif olunur. Turizmin inkişafı yüksək səviyyədə qurulan infrastrukturla bağlı olduğu kimi, həm də sabitliklə bağlıdır. Bu iki amilin muxtar respublikada mövcudluğu turistlərin buraya gəlməsi üçün daha bir üstünlük yaradır.

Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi və ölkəmizin Gənclər Paytaxtı seçilməsi turizm imkanlarımızı nümayiş etdirmək baxımından mühüm əhəmiyyətə malik olmuşdur. Görülən işlərin nəticəsidir ki, Böyük Britaniyada nəşr olunan dünyanın ən məşhur səyahət jurnalı “Vanderlast” Naxçıvan şəhərini səyahət edilən 50 ən təhlükəsiz və gözəl şəhərlər sırasına daxil etmişdir. Naxçıvanın mübarizliyinin, əyilməzliyinin simvolu olan Əlincəqala Perudakı Machu Picchu qala şəhəri ilə müqayisə olunur. Bütün bunlar muxtar respublikamızda qısa müddətdə turizm sahəsində qazanılmış böyük uğurların göstəricisidir.

Turist məmnunluğunu səciyyələndirən amillərdən biri də nəqliyyat xidmətləridir. Muxtar respublikada müasir standartlara cavab verən nəqliyyat infrastrukturu qurulmuşdur. Taksi fəaliyyəti göstərən sürücülərin məlumatlılığının artırılması məqsədilə qrafik əsasında muzeylərlə tanışlığı və maarifləndirilməsi təmin edilir. Həmçinin daim fəaliyyət göstərən avtobus marşrutlarına nəzarət olunur, Əshabi-Kəhf Ziyarətgahı Dini Mədəni Abidə Kompleksinə, Uzunoba gölündəki çimərliyə və digər turizm potensiallı obyektlərə mövsümi marşrutlar fəaliyyət göstərir.

Turizmin inkişafını stimullaşdıran məsələlərdən biri də təbliğat və təşviqat işləridir. Turizm Departamentinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Turizm İnformasiya Mərkəzində muxtar respublikaya turistlərin cəlbi baxımından ardıcıl işlər görülür, turistlərin sorğuları cavablandırılır, internet resurslarından istifadə edilməklə muxtar respublikanın turizm potensialı tanıdılır. Həmçinin turistlərin məlumatlılığının artırılması məqsədilə Azərbaycanda və xarici ölkələrdə fəaliyyət göstərən turizm obyektləri ilə məlumat mübadiləsi aparılır, muxtar respublikanın turizm potensialı haqqında məlumatlar ölkəmizdə və 20-yə yaxın xarici ölkədə fəaliyyət göstərən mehmanxana və turoperatorların elektron poçt ünvanlarına göndərilir. Turizm marşrutlarının bukletləri hazırlanaraq çap etdirilmiş, turist xəritələri hazırlanmışdır. Muxtar respublikanın dini turizm potensialını daha geniş auditoriyaya çatdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikasının Dini turizm xəritəsi hazırlanaraq nəşr olunmuşdur. Hazırda fəaliyyət göstərən *virtualnakhchivan.az* saytı təbliğat-təşviqat sahəsində atılmış mühüm addımlardan biridir. Sayt vasitəsilə turistlər internet resurslarının köməyi ilə Naxçıvan Muxtar Respublikasında yerləşən tarix-mədəniyyət abidələrinə, muzeylərə, parklara, hotellərə və bir sıra digər turizm potensiallı obyektlərə virtual səyahət edə bilirlər. Azərbaycan və ingilis dillərində nəşr olunmuş “Naxçıvan: dörd fəsildə” kitabı da bu sahədə görülən işlərin davamı olmaqla yanaşı, muxtar respublikanın turizm sektoru üçün də mühüm töhfə olmuşdur.

Turizm sahəsində kadr hazırlığı mühüm məsələlərdəndir. Hazırda Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərində Turizm işinin təşkili ixtisası üzrə kadr hazırlığı aparılır, Ordubad Texniki Peşə və Sürücülük Məktəbində, eləcə də Naxçıvan Şəhər Peşə Liseyində Turizm agenti ixtisası üzrə peşə kursları fəaliyyət göstərir. Tədris ilində tələbələrə görüşlər keçirilir, onların Naxçıvan Muxtar Respublikasında yerləşən muzeylərə, tarixi abidələrə, müalicə mərkəzlərinə və xüsusi qorunan təbiət ərazilərinə ekskursiyaları təşkil edilir, təcrübələr və maarifləndirici seminarlar keçirilir. Bununla yanaşı, cari ilin iyununda Naxçıvan Muxtar Respublikasında mövcud olan turizm marşrutları üzrə bələdçilərin texniki peşə biliklərinin təkmilləşdirilməsi məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində beynəlxalq təlimçilər tərəfindən təlimlər keçirilmişdir. Həmçinin qədim diyarın turizm potensialının öyrənilməsi və təbliği istiqamətində Turizm Departamenti tərəfindən “Turizm könüllüsü” layihəsi həyata keçirilməkdədir.

*Muxtar respublikada turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər, yaradılan şərait qədim diyarın turizm potensialının inkişafı üçün bundan sonra da geniş üfüqlər açacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Turizm Departamenti***

## Teatr 139-cu yaradıcılıq mövsümünə başlayıb

*Sentyabrın 24-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 139-cu yaradıcılıq mövsümünün açılış tədbiri olub.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxışında vurğulayıb ki, Azərbaycanda ilk peşəkar teatrın yaranmasından 10 il sonra – 1883-cü il mayın 11-də əsası qoyulan və bu gün 139-cu mövsümünə başlayan Naxçıvan teatrı xalqımızın mənəvi təkamülündə, estetik şüurunun formalaşmasında, tarixi mübarizələrin bədii təcəssümündə əhəmiyyətli rol oynamışdır.



Naxçıvan Muxtar Respublikasında teatrların fəaliyyəti üçün yaradılan şəraitdən də bəhs edən nazir bildirib ki, muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində daim ardıcıl tədbirlər həyata keçirilir, teatr sənətinə bağlı insanların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Qeyd edək ki, 139-cu teatr mövsümünün açılışı münasibətilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının kollektivi rus yazıçısı Nikolay Qoqolun "Müfəttiş" komediyası əsasında hazırlanmış səhnə əsərini teatrsevərlərə təqdim edib. Tamaşanın rejissoru Xalq artisti Kamran Quliyev, əsas rolları Xalq artistləri Rza Xudiyev, Rövşən Hüseynov, Azərbaycan Respublikasının Əməkdar artistləri Əli Əliyev, Əbülfəz İmanov, Behruz Haxverdiyev və başqaları canlandırıblar.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

## Yol gedər Üstüpüyə...

### Torpaq silahla qorunmaqla yanaşı, milli ruhla da sevilməlidir ki, VƏTƏN olsun

***Bu dəfə yolumuz Ordubadın ən səfalı yerlərindən biri Üstüpüyədir. Əslində, bu kəndə gəlməyimiz təsadüfi deyil. Bu yay bir neçə dəfə yanından ötdüyümüz Üstüpü kəndinin zəhmətkeş insanları ilə həmsöhbət olmaq arzusu bizi yenidən bu kəndə gətirdi. Naxçıvan-Ordubad magistralından sola ayrılaraq Üstüpüyə gedən yola çıxırıq. Başı ərşə dayanan cəviz ağaclarının kölgəsinə bürünmüş asfalt örtüklü rahat yolumuz bizi irəli apardıqca bir-birini əvəz edən kəndlər, gördüyümüz mənzərələr, zəhmətkeş insanların yaratdıqları ilə sanki başqa bir aləmə qovuşuruq. Bəli, rahat yollar. O yollar ki bir zamanlar tozlu-torpaqlı, daşlı-kəsəkli idi. Üz tutduğun ünvana bir saata getməli olacaq yolu iki saata ancaq qət edirdin. Hələ qışını demirəm. İndi isə Düylün-Çənnəb-Üstüpü-Məzrə qolunun gözəlliklərini seyr edirik. Tarixi evlər, müasir memarlığın əsəri olan kənd mərkəzləri, məktəblər, dağlardan üzü Araza doğru axan çay və göz işlədikcə uzanıb gedən yaşıllıq zolağı dünənlə bu günün, canlı təbiətlə antropogen təsirin tandemini yaradır. Kəndlərdəki müasir quruculuq insan amilinə verilən dəyərin, qazanılan uğurların və müasir inkişafın mənzərəsini gözlər önünə sərir. Bu yerlərin insanları ana təbiətin dilini bilib bu qiymətli sərvətdən onun ahənginə uyğun istifadə edirlər. Təbiət də onların zəhmətini əvəzsiz qoymur, qarşılığını birə-beş ödəyir.***

Budur, qarşımızda hər bir tərəfi, sanki gül açan kələm sahələri ilə dolu Üstüpü kəndi... Qədim, dar məhəllələri, tarixi evləri, zəhmətsevər insanları, XVII-XVIII əsrlərə aid hamamı, məscidi və müasir infrastrukturu ilə Üstüpü kəndi modern inkişafdan öz nəsibini alıb. Dar vadi boyunca uzanan yaşıllıq zolağı, bu yaşıllıq arasında ilan kimi qıvrılan rahat asfalt yol, yeni məktəb binası və sosial obyektləri gözlərimiz önündə maraqlı bir tablo açır. Vadinin əkinçiliyə yararlı olan hər qarışı zəhmətkeş kəndlilərin əlində bol məhsullu tərəvəz anbarına çevrilib. Rayonun bu hissəsini dadlı-tamlı kələm, kartof və lobyanın məskəni də adlandıra bilərik. Bu mənzərəni yaradan insanlarla tanış olmağa tələsirik.

Kənd sakini Niftulla Əsədov həyətyanı sahəsində lobya – cax maşı və kələm yetişdirir. İlk dəfə eşitdiyimiz "cax maşı" ifadəsinin nə mənaya gəldiyini də elə Niftulla kişidən öyrənirik. Deyir ki, onlar yalnız yaşıl ləti üçün deyil, dənləri üçün yetişdirilən lobyanı "cax maşı" adlandırırlar. Naxçıvan bazarlarında, hətta Bakıda Üstüpü maşının dad-tamı çoxlarına bəllidir. Özünəməxsus hazırlanma üsulu ilə lobya dənələrindən bişirilmiş maş şorbasının dadından doyum olmaz. Bir dəfə Ordubadın bir kəndində evlərində qonaq olduğumuz sakinlərdən biri həyat yoldaşından israrla bizim üçün bu torpaqda yetişmiş kartofdan yemək hazırlamağını istəyirdi. Biz etiraz etsək də, ailə başçısı burada yetişən kartofun dadının bir başqa olduğunu deyirdi. Deyirdi ki, alıcılar bu lobyanın qiymətini baha hesab etdikdə onlara deyirəm ki, bu lobyanın yağı da, qovurması da elə öz içindədir. Sadəcə, siz suya atıb bişirəcəksiniz, vəssalam. O zaman bu fikirlər bizim üçün, bəlkə də, o qədər inandırıcı deyildi. Amma üstündən bu qədər keçdikdən sonra o kartofun da, sonradan dadına baxmaq imkanı əldə etdiyimiz Ordubadın maş şorbasının da ləzzəti yaddaşımızda həmişəlik qalıb. Bu ləzzət isə insanların bu torpağa olan sevgisinin, qayğısının, alın tərinin təzahür etmiş halıdır.

Niftulla kişi deyir ki, hər il həyətyanı sahəsində əkdiyi kələmdən xeyli məhsul əldə edir. Bu il də 800 kələm şitili əkən təsərrüfatçı 3 tondan artıq məhsul yığacağı qənaətindədir. Deyir ki, əldə etdiyi məhsulla həm öz ehtiyaclarını ödəyir, həm də dost-tanışa pay verir, qalanını isə yerli bazarlara çıxarır. Həyətdə bir dəqiqə də boş qalmır. Gah kələmlərin, lobyanın alağını edir, gah meyvə ağaclarına qulluq göstərir, gah da mal-qarasına qış üçün ot tədarük edir. Kəndin girişində isə ərik, alma, armud ağaclarından ibarət bağı var. Deyir ki, saxladığım bir inək gündəlik 10 litrdən artıq süd verir. Bu isə ailəmizin ehtiyaclarını artıqlaması ilə ödəyir.

Ordubadın ucqar dağ kəndlərinin evlərini limonsuz təsəvvür etmək mümkün deyil. Niftulla kişi həm də limonçuluqla məşğuldur.

* * *

Üstüpü kəndində muxtar respublikanın adlı-sanlı təsərrüfatçılarından olan, yaxşı məhsul istehsalçısı kimi tanınan Ziyad Kərimovla həmsöhbət oluruq. Həyətlərində bizi təsərrüfatçının anası Cəmilə nənə qarşılayır. Tut qurusu təmizləyən Cəmilə nənə deyir ki, kənddə yaşayan insanlar mütləq təsərrüfatın hər hansı bir sahəsi ilə məşğul olmalıdır. Özü də həyətdə bir neçə çeşiddə tərəvəz becərir, toyuq-cücə və qaramal saxlayır.





Belə zəhmətkeş bir ailədə doğulub böyüyən Ziyad Kərimovun təsərrüfata marağı da elə uşaqlıqdan başlayıb. Balacalığından ata-anasına kömək edib. Beləcə, torpağa, əməyə bağlı şəkildə yetişib. O, yaxşı bilir ki, burada yaşayanların birinci gəlir yeri torpaqdır. Torpaqla işləmək səriştə tələb edir. Bunun üçün təbiətin və torpağın dilini bilmək lazımdır. Deyir ki, torpağa sevgi hissi olmasa, ondan heç nə əldə edə bilməzsən. Elə bu hiss onu böyük bir ailə təsərrüfatçısına çevirib.

Üstüpü kəndinin "Nəbili yurdu" adlanan ərazisi coğrafi mövqeyi, özünəxas iqlimi, axar suları, bərəkətli torpaqları ilə əkinçilik üçün kifayət qədər yararlıdır. Bu yaylaq yeri dəniz səviyyəsindən xeyli hündür olduğundan daha çox miqdarda yağıntı alır. Ona görə də burada keyfiyyətli tərəvəz məhsullarının istehsalına üstünlük verilir. Nəbili yurdunda təsərrüfat işləri may ayında başlayır və sentyabr-oktyabr aylarına – məhsul yığımına qədər davam edir. Təsərrüfatçı 3 hektar sahədə kələm, 2 hektar sahədə kartof əkib. Bundan əlavə, lobya, xiyar, bibər və digər tərəvəz bitkiləri də burada yaxşı məhsul verir. Amma bununla belə ərazi kələm bitkisinin və kartofun yetişdirilməsi üçün daha çox uyğundur. Buradan tədarük olunan məhsul may ayına qədər yerli bazarı təmin etməyə imkan verir.

Onu da qeyd edək ki, Nəbili yurdunun bərəkətli torpaqlarında bitən rəngarəng, ətirli çiçəklər buranı arı ailələrinin saxlanılması üçün də əlverişli məkana çevirib. Təkcə ötən il 1400 arı ailəsi bu yaylaq yerinin çiçəklərindən min bir dərdin dərmanı olan, keyfiyyətli, dadlı-ləzzətli bal toplayıb.

Ziyad Kərimov deyir ki, təsərrüfat işləri vaxtlı-vaxtında həyata keçirilməlidir. Alağı vaxtında aparılmalı və gübrə verilməlidir. Gübrə olaraq daha çox üzvi gübrələrdən istifadə edir. Üzvi gübrələri isə yaxınlıqlardakı obalardan gətirirlər. Nəbili yurdunun torpağı da mineral maddələrlə zəngindir. Sahibkar deyir ki, torpağın tərkibinin laboratoriyada analiz etdirilməsi üçün təşəbbüs göstərib. Analizin nəticələrinə görə məlum olub ki, bu torpağın tərkibində 9 növ mineral və üzvi gübrə var.

Sahibkar yaradılan şəraitdən istifadə edərək kənd təsərrüfatının inkişafına, bazarın yerli və keyfiyyətli məhsulla təminatına dəstək verir. 20-yə yaxın kənd sakini bu təsərrüfat işlərinin həyata keçirilməsində ona kömək edir. Çünki tək əldən səs çıxmaz, – deyiblər. Həm bu ailələrin məşğulluğu təmin olunur, həm də onlar da məhsul istehsalında, Naxçıvan bazarlarında keyfiyyətli məhsul bolluğunun yaradılmasında, əhalinin ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə etibarlı təminatında iştirak edirlər.

Xalqımızın minillik müdrik fikir, tarix toplusu olan "Kitabi-Dədə Qorqud"dan yaddaşlarda ilişib qalan "Torpağı əkib-becərmirsənsə, , qorumağa, qorumursansa, əkib-becərməyə dəyməz" fikrini xatırladan sahibkar deyir ki, bu gün torpaqlarımızda əmin-amanlıq içində yaşamağımız və sərhəd bölgəsində belə rahat şəkildə təsərrüfatla məşğul ola bilməyimizi müzəffər Ordumuza borcluyuq. Buna görə də istehsal etdiyi məhsullardan hərbi hissələrə sovqat aparmağı da unutmur.

Gənc sahibkarın uğurları da kifayət qədərdir. 2015-ci ildə ərazi və məhsuldarlıq nisbətinə – az ərazidə yüksək məhsuldarlıq əldə etdiyinə görə muxtar respublika birincisi olub. 2019-cu ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sahəsində səmərəli fəaliyyətinə görə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunub.

Həmsöhbətimiz deyir ki, hər şeyi dövlətdən gözləmək olmaz. Vətəndaşlar da çalışmalıdır ki, muxtar respublikada məhsul bolluğuna töhfə versinlər. Buna görə də bu il muxtar respublikada ilk dəfə olaraq 10 min şitil qırmızı kələm əkib. Bundan əvvəl kiçik sahələrdə əkərək məhsuldarlığı yoxlayan sahibkar bu sahəni də genişləndirmək qərarına gəlib. Deyir ki, buranın iqliminə uyğun olduğundan bu sahədən də yüksək məhsuldarlıq əldə edəcəyinə inamdır.

Sahibkar istehsal etdiyi məhsulu daha çox yerli bazarlara çıxarır. Payız mövsümündə yolunu Naxçıvan bazarlarına salanlar mütləq satıcıların "Üstüpü kələmi! Üstüpü kartofu!" – deyə müştəri çağıran səslərini, ya da alıcıların "Üstüpü kələmidir? Üstüpü kartofu var?" kimi suallarını kifayət qədər eşidə bilərlər.

Kənd yerlərində yaşayanları mal-qarasız, toyuq-cücəsiz təsəvvür etmək olmaz. Ziyad Kərimov da ailəsi ilə birlikdə bir neçə baş heyvan saxlayır. Tədarük olunan məhsulu isə öz ailələrinin ehtiyacları üçün istifadə edirlər.

Təsərrüfata sevgisini həyətyanı sahəsində təbii şəraitdə yetişdirdiyi kivi ağacları ilə də sübut edir sahibkar. Daha çox subtropik iqlimin bitkisi olan ağacın bu gün Üstüpü torpağında qol-budaq atması onun torpağa bağlılığının daha bir göstəricisidir. Üstü meyvələrlə dolu olan bu ağacları isə 10 il əvvəl əkib.

Elə ki yay gəldi, bütün ailə üzvləri yığışır ata ocağına. İsti yay günlərini bu səfalı kənddə keçirmək, ötən çağları, keçmiş xatirələri yada salmaq, uşaqların geniş kənd həyatında yaşıl otlar üzərində qaçışması isə başqa bir aləmdir. Həyətdəki şah tutun iri, ipək yarpaqları arasından parıldayan qırmızı-qara turşməzə giləmeyvələri, artıq yetişmiş bir üzü sarı, bir üzü qırmızı almanın yerə düşən şirin payları, payız armudunun iriləşmiş yaşılı-sarı meyvələri, hündür cəviz ağacının yaşıl qabığa bürünmüş, iri, oval yarpaqlı fındığın yaşıl taclı və nəhayət, ağ tutun artıq qurumuş, elə biz gələndə də Cəmilə nənənin təmizləyib qışa hazırladığı meyvələri bu iqlim üçün qonaq olan kivinin meyvələri bu torpaqda yaşayan insanların əməksevərliyinin bəhrələridir.

Yaşıl çəmənliyin qoynunda uzanan, ləklərində özünə yer tutan sarı çiçəkləri, çəhrayı-qırmızı rəngli meyvələri ilə pomidor, ağ çiçəkləri, uzun, yumru, bəzən isə hər hansı bir formaya uyuşmayan, yaşıldan qırmızıya qədər dəyişən rəngləri ilə bibər, bənövşəyi çiçəkləri və meyvələri ilə badımcan, ağaclarla bəhsə girişmiş kimi uzandıqca uzanan, böyüdükcə böyüyən, yanına basdırılmış quru ağac budaqlarından güc alırmış kimi mavi səmaya doğru can atan, ağ-sarı çiçəkləri, yaşıl gövdələrindən sallanan yaşıl meyvələri ilə lobya kolları torpağa göstərilən sevgidən güc alaraq bir-birindən dəyərli məhsullarını zəhmətkeş insanlara bəxş edir.



Hələ də sərin mehin əsdiyi günorta saatlarında oturduğumuz nahar süfrəsində kənd məhsullarının dadına baxırıq. Nəbili yurdunun kartofu, həyətdə yetişmiş tərəvəzlərin, dağların otundan, gül-çiçəyindən yemiş, dağ çaylarının suyundan içmiş dananın əti, bəsləndikləri heyvanların südündən hazırladıqları pendiri və ətirli lavaşı alın təri və qabarlı əllərdən keçib bu süfrəyə gəlib.

Kərimovlar ailəsindən bu düşüncələrlə ayrıldıq. Qoy bu gün yaşadığımız cəmiyyətdə torpağı yaxşı əkib-becərən, maldarlıqla məşğul olan gənc torpaq mülkiyyətçilərimizin sayı çox olsun. Elə torpaq mülkiyyətçiləri var ki, onlar işləri ilə ad qazanır, bir alimin, məmurun, müəllimin, həkimin Vətəninə verə bildiyi qədər xeyir verir ölkəsinə. Ziyad Kərimov kimi...

Kənddə olarkən bizi ən çox sevindirən məsələlərdən biri də əkin sahələri ilə məşğul olan gənclərin çoxluq təşkil etməsi idi. Onlardan biri – 28 yaşlı Məmməd Məmmədli ilə həmsöhbət olduq. O, bütün ailəsini əkin işlərinə cəlb edib. Daha doğrusu, ailə təsərrüfatı yaradıb. Üstüpü üçün xarakterik olan bütün məhsullara onun təsərrüfatında da rast gələrsən.

Ümumiyyətlə, Üstüpüdə boş torpaq sahəsi tapmazsan. Hər kəs əkir-becərir, torpağa sahiblik edir. Çünki bu gün hər bir kənddə torpağını əkib-becərmək üçün kəndliyə hər cür şərait yaradılıb. Torpaqlar rayonlaşdırılıb, harada nə əkmək lazım olduğu, hansı mütərəqqi metodlardan istifadə etməyin yollarını kənd adamı yaxşı bilir.

Üstüpüdən ayrılmaq vaxtı çatmışdı. Kənddə ana Vətən torpaqlarını barlı-bəhərli gördükcə qürurlandıq. Qürurlandıq ki, üstüpülülər kənddən xeyli aralıda – ta Nəbili yurduna kimi gedib çıxıb, torpağı böyük həvəslə əkib-becərirlər. Belə bir söz var, torpaq silahla qorunmaqla yanaşı, milli ruhla da sevilməlidir ki, VƏTƏN olsun. Axı torpağı əkmiriksə, onda onu qorumağın da faydası yoxdur. Qədim və müasir Naxçıvanımızın hər qarışı həm qorunur, həm də böyük zəhmətlə əkilib-becərilir. Çünki bu ulu diyarda hər kəs bir ocağın başında toplaşıb, bir ocaqdan güc alır, bir ocaqda isinir. Şair Məmməd Arazın dediyi kimi:

*Yenə dağ döşündə dənərləndi qar,*
*Yenə zirvələrin həsrətində qal.*
*Sel qopdu, dərəyə düşdü qalmaqal...*
*Bir ocaq başında bir isinməsək*
*Sən kimə gərəksən,*
*Mən kimə gərək?!*

**Sara ƏZİMOVA,**
**Məmməd BABAYEV**

# Qəhrəmanlar unudulmur

## Rəsm sərgisi təşkil edilib



*Sentyabrın 24-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 27 sentyabr – Anım Günü ilə bağlı "Qəhrəmanlar unudulmur" adlı rəsm sərgisi keçirilib. Əvvəlcə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbəyə görə igid oğullara borcluyuq. O oğullar ki böyük qəhrəmanlıq, şücaət göstərərək Vətən yolunda öz canlarını qurban veriblər. Müharibədə Naxçıvanımızın qeyrətli oğulları da böyük cəsarət göstərib, şəhidlik adlı uca məqama yüksələrək əbədiyaşarlıq qazanıblar. Muxtar respublikamızda şəhidlərimizin xatirəsi həmişə yaşadılır, əziz tutulur, şəhid ailələrinə diqqət və qayğı göstərilir. Bu gün sərgi salonunda şəhidlərimizin portretləri və tematik kompozisiyalar sərgilənir. Ümumilikdə, 25 rəssamın 62 rəsm əsəri nümayiş olunur. Çəkilən portretlər şəhidlərimizin xatirəsini yaşadacaq, biz onları heç zaman unutmayacağıq.

Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev çıxış edərək torpaqlarımızın azad olunmasında iştirak edən Vətən oğullarının igidliyindən, qəhrəmanlığından danışıb. Bildirib ki, əgər bu gün illərdir, həsrətini çəkdiyimiz Qarabağımıza qovuşmuşuqsa, hamının yanında başımız dikdirsə, tarixə qızıl hərflərlə yazılan Zəfər əldə etmişiksə, bunu bizim hərbçilərimizə, şəhidlərimizə borcluyuq. Biz onları bu cür vətənpərvər, qorxmaz şəkildə böyüdən şəhid analarının qarşısında baş əyirik. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyirik.

Sonra şəhid Amin Gülməmmədovun atası Mayis Gülməmmədov çıxış edərək muxtar respublikamızda şəhid ailələrinə göstərilən qayğıya və sərginin təşkilinə görə minnətdarlıq edib.

Sonda şəhid portretləri onların ailə üzvlərinə təqdim edilib, onlarla xatirə şəkli çəkdirilib.



*Şəhid Raqib Hüseynov, rəssam Həmzə Sadiqov*



*Şəhid Vəli Quliyev, rəssam Telman Abdinov*



*Şəhid Əli Məmmədov, rəssam Şəmsəddin Əliyev*



*Şəhid Elvin Məmmədov, rəssam Mirilqar Seyidov*

## Nəsillərdən-nəsillərə yadigardır adınız, ŞƏHİDLƏR!



Naxçıvan şəhər qəbiristanlığının yerləşdiyi küçədən keçirəm. Buradan elə-belə ötüb getmək mümkün deyil. Qırmızı qərənfil və əklillərin dövrəyə aldığı məzarlar hər kəsi şəhidlərimizin ruhuna hörmət və ehtirama çağırır. Elə məni də. Dəmir qapıdan içəriyə daxil oluram. Bir azca irəli gedən kimi onlar qarşılayır təbəssümlə, cəsur, qürurlu, başı dik duruşla...

Salam, Vətənimizin qəhrəman oğulları! Gözünü qırpmadan canını fəda edən ərənlərimiz! Qəlbinizin dərinliklərindən süzülüb dilə gəldi "Ya Qarabağ, ya ölüm!" şüarı. Bir anda bütün Azərbaycanın himninə çevrilən bu şüarla atıldınız müharibəyə qorxmadan, çəkinmədən, tərəddüd belə etmədən. Şanlı Vətən müharibəsində hiyləgər düşmənlə döyüşdünüz. Biriniz Suqovuşanda, biriniz Şuşada, biriniz Laçında, biriniz Zəngilanda, biriniz Cəbrayılda, biriniz Füzulidə, biriniz Qubadlıda...Yorulmadınız, sınmadınız, əyilmədiniz, sona qədər getdiniz. Sərkərdə məharətli, bir aslan qədər cəsarətli, qeyrətli, məğrur davranışınızla düşməni geri oturtdunuz Naxçıvan torpağının vətənpərvər, igid oğulları...

30 ilə yaxın idi, könlümüz sızlayır, Qarabağ həsrəti, Qarabağ dərdi ürəyimizi göynədirdi. Hər bir qarışı cənnət olan Şuşamız, Laçınımız, Kəlbəcərimiz, Füzulimiz, Qubadlımız, Zəngilanımız illərdir, yolumuzu gözləyirdi. Şanslı sayıram sizi ki o torpaqlara ilk ayaq basan məhz siz oldunuz, əziz şəhidlərimiz. O yerlərin havasını uddunuz, suyundan içdiniz. Bir çoxunuzun da bir gün o yerlərdə yaşamaq arzusu var idi. Qarabağımız cənnətməkandır axı...

Vətənpərvər insanlar yetişdirən Naxçıvanımızda təhsil aldınız. Böyüklərinizin öyüd-nəsihətləri ilə tərbiyələndiniz. Arzunuz idi hərbçi olmaq, Vətənimizin keşiyində dayanmaq. Hərbi təhsilinizi müvəffəqiyyətlə bitirib çətin, məsuliyyətli və şərəfli peşə sahibi oldunuz. Bir çoxunuz ali hərbi təhsil alaraq Azərbaycan Ordusunun sıralarına qatıldı. Sizə inandıq. Torpaqlarımızın işğaldan azad olunacağı günü səbirsizliklə gözlədik. "Öldü var, döndü yox!" deyərək yollandınız müharibəyə. O müharibə ki başladığı ilk dəqiqələrdən sona qədər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı sizin, minlərlə sizin kimi qeyrətli, vətənpərvər oğulların sayəsində. Hansı ki Vətəni özlərinə can bilib, son damla qanını da bu torpaqda qoyub getdilər. İndi məzarlarınız yan-yanadır. Əsgərlər Xansu Qurbanov, İbrahim İbrahimov, baş leytenantlar İsmayıl Vəliyev, Elnur Zeynalov, Fuad Əlizadə, Raqib Hüseynov, "Naxçıvan canavarı" ləqəbli leytenant Vəli Quliyev, mayor Sadiq Həsənov, kapitan Aşur Cəmiyev uyuyur bu məzarlarda. 44 günlük müharibə zamanı Naxçıvanımıza bir-birinin ardınca şəhidlərimiz gətirildi. Siz də onların içərisindəydiniz.

Bütün Naxçıvan uca tutdu sizi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri şəhidlərimizin qarşılanmasında şəxsən iştirak etdi... Burada kapitan Aşur Cəmiyevin qardaşı Azər Cəmiyevin yazdığı şəhidin adının baş hərflərindən ibarət bu misraları oxuyuram:

*Azərbaycan torpaqları uğrunda getdin.*
*Şücaət, mərdlik, igidlik etdin,*
*Uğrunda Vətən üçün canından keçdin.*
*Rahat uyu, şəhidim Aşur qardaşım...*

Hərəsi bir yaşda idi onların – 20, 24, 28, 34... Ömürlərinin bahar çağları idi. Bir anda, sanki payız gəldi, o ömür yarpaqları saraldı, qopdu, düşdü. Bu yarpaqlar indi Zəfər yolundadır. Onlara nə külək, nə də çovğun toxuna bilər. Zəfər yolu ən müqəddəs yoldur. Siz bu yolu açdınız, qurdunuz, yaratdınız, əziz şəhidlərimiz. İndi fəxrlə irəliləyirik bu yolda, saralıb düşən o yarpaqlar da həmişə sizi xatırladır bizə. Sonu aydınlıq olan bu yoldan övladlarınız, gələcəyin vətənpərvər gəncləri keçir. Hansı ki onların da müəllimi sizsiniz. Vətəndaş kimdir, hansı hisslərlə yaşamalıdır? – onlar bunu sizdən öyrənirlər...

Gündə onlarla adam gəlir bu qəbiristanlığa sizi ziyarət etməyə. Ürəyi qanayan, lakin başı dik, qürurlu valideynləriniz gəlirlər. "Vətən sağ olsun!" – deyib, məzar daşlarını qucaqlayıb öpürlər, amma sizdən doymurlar. Qəhrəmanlıq haqqında hekayənizi, Qarabağımızda cəsarətlə vuruşub, düşməni necə xar etdiyinizi elə hey söyləyir, hamı ilə paylaşmaq istəyirlər. Sizin kimi vətənpərvər övladlar yetişdirib, böyütdükləri üçün hamı da onlara minnətdardır. Onu da deyim bilin ki, muxtar respublikamızda sizin ailələrinizə böyük ehtiram göstərilir, onlar daim diqqətdə saxlanılır. Bu ölüm, adi ölüm deyil. Əzizlərimiz Vətən, torpaq uğrunda canından keçənlər ölmürlər, əbədilik qazanırlar. Siz də min illər keçsə belə, yenə xatırlanacaqsınız. Şeirlərdə, hekayələrdə, dastanlarda, məqalələrdə, tarixdə, ürəklərdə yaşayacaqsınız. Rahat uyuyun məzarınızda. İndi sizin övladlarınız böyüyür. Bu o deməkdir ki, həyatda sizin varisləriniz – Vətənin qəhrəman övladları yetişir. Həmin övladlar ki atalarının xatirələrini yaşadacaq, hər yerdə onları anacaqlar, ataları ilə daim fəxr edəcəklər...



*Vətən qədrini canından daha əziz bilən şəhidlərimiz Allah sizə rəhmət eləsin!*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Vətən həmişə şəhidləri ilə var olur



O, Şərur rayonunun Çomaxtur kəndinin ilk Vətən müharibəsi şəhididir. Həyatının 24-cü baharını yaşayırdı. Ömrünün ən gözəl ilində yüzlərlə qəhrəman kimi həyatı bahasına xalqımızın bir payız gününü yaza çevirdi. Onun üçün Vətənə xidmət həyat amalı idi.

Aqil İsmayılov 1996-cı il 18 iyulda Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Çomaxtur kəndində anadan olub. Heydər Əliyev adına Hərbi Liseyi fərqlənmə ilə bitirərək Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2018-ci ildə leytenant hərbi rütbəsini alıb. XTQ-nin zabiti olmaq üçün bir neçə kursa gedib. XTQ kəşfiyyatçısı olan Aqilin ən böyük arzusu Kəlbəcərin azad olunması idi. Onun arzusu yerinə yetdi... Canı, qanı bahasına. Elə Kəlbəcər üçün başlanan döyüşlərdə qrup komandiri olaraq əməliyyatları yerinə yetirərkən şəhidlik zirvəsinə ucaldı. Bir oktyabrda Şərur şəhər Şəhidlər xiyabanında əbədiyyətə yola salındı. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən Aqil İsmayılov ölümündən sonra "Hərbi xidmətlərə görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.

Vətən torpağının bir qarışının belə, düşmənin əlinə keçməsinə göz yuma bilməyən Aqil kimi oğullarımız ölümü şərəfli yol kimi seçdi və onlar Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin də vurğuladığı kimi, qələbə bayrağımızın Xankəndidə, Şuşada, Kəlbəcərdə, Zəngilanda, Laçında, Azərbaycanın işğal altındakı digər ərazilərində dalğalanması naminə canlarından keçdilər. Azad edilmiş torpaqlarımızda zəfər bayrağı dalğalananda, himnimiz səslənəndə Aqil və onun kimi igid Vətən oğullarının ruhu şad olur.

Cəmi 44 günlük zəfər yürüşündə Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın qələbəsi ilə birdəfəlik həll olundu. Birinci Qarabağ müharibəsində şəhid olan oğullarımızın nigaran ruhları ağ göyərçinə dönüb azad Qarabağımızın səmasında qanad çaldı, "Gözün aydın, Vətən!" – dedi. Bu ruhu, bu Vətən məhəbbətini, Vətən üçün ölməyə hazır olmaq şövqünü yaradan Aqil kimi qəhrəman övladlarımız xalqımızın şərəfli tarixinin səhifələrinə əbədi olaraq həkk olundular.

✍ **Ramiyyə ƏKBƏROVA**

### İtmişdir

Baxşəliyev Cəlal Etibar oğlunun adına Naxçıvan şəhəri, Qaraçuq kəndində olan torpaq sahəsinin MH-0019015 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Muğancıq-Müslüm kəndində yaşamış Hüseynova Gülgəz Canbaxış qızına məxsus JN-143$^{A}$ nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 790